Elmi Şuranın 12 sentyabr 2025-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmiş (Protokol № 01)

Bakı Biznes Universitetinin Elmi Şurası haqqında

ƏSASNAMƏ

(yeni redaksiyada)

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 07 mart 2025-ci il tarixli KQ-02 nömrəli Qərarı ilə təsdiq olunmuş "Dövlət tərəfindən yaradılan ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə"nin müddəaları əsasında hazırlanmışdır. Bakı Biznes Universitetinin daxili idarəetmə və hüquqi tələblərinə uyğun olaraq, Elmi Şuranın təşkili və fəaliyyəti bu Əsasnamə ilə tənzimlənir.

1. Ümumi müddəalar

1.1. Bakı Biznes Universitetinin Elmi Şurası (bundan sonra – Şura) ali təhsil müəssisəsinə ümumi rəhbərliyi həyata keçirən ali idarəetmə orqanıdır.

1.2. Şura ictimai əsaslarla fəaliyyət göstərir və öz işini demokratiklik, şəffaflıq, kollegiallıq və qanunçuluq prinsipləri əsasında qurur.

1.3. Şura öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında", "Elm haqqında" və digər normativ hüquqi aktları, universitetin nizamnaməsini və bu Əsasnaməni rəhbər tutur.

2. Şuranın tərkibi və formalaşdırılması

2.1. Şuranın tərkibi tutduqları vəzifələrə görə və seçki yolu ilə müəyyən olunur.

2.2. Vəzifəyə görə Şuranın tərkibinə aşağıdakılar daxildir:

- Rektor (Şura sədri)
- Tədris işləri üzrə prorektor (sədr müavini)
- Digər prorektorlar
- Elmi katib (Şuranın katibi)
- Fakültə dekanları

- Kafedra müdirləri

- Həmkarlar ittifaqı təşkilatının (əməkdaş və tələbə) sədrləri

- Tələbə Elmi Cəmiyyətinin və Tələbə Gənclər Təşkilatının sədrləri

2.3. Seçkili üzvlərin sayı vəzifəli üzvlərin sayından 10 faiz artıq müəyyən edilir. Onların 20 faizi tələbələr və doktorantlardan ibarət olur.

2.4. Seçkilər gizli səsvermə ilə fakültələrin ümumi iclaslarında keçirilir. Namizədlər 50 faizdən çox səs topladıqda seçilmiş sayılır.

2.5. Şura üzvlüyündən çıxan şəxslərin yerləri üzrə yeni seçkilər keçirilir. Yeni üzvlərin səlahiyyəti mövcud şuranın müddəti ilə məhdudlaşır.

3. Səlahiyyət müddəti

Şuranın səlahiyyət müddəti 5 ildir. Vaxtından əvvəl buraxılma Şura üzvlərinin 2/3-nin vəsatəti və ya rektorun qərarı ilə həyata keçirilə bilər.

4. Şuranın səlahiyyətləri

Şura aşağıdakı məsələləri müzakirə edir və qərar qəbul edir:

- Universitetin strateji inkişaf proqramlarını müzakirə və təsdiq

- Tədris və elmi fəaliyyət planlarının təsdiqi və monitorinqi

- Elmi tədqiqatların mövzularının və planlarının təsdiqi

- Tədris planlarının və ixtisas proqramlarının təkmilləşdirilməsi

- Keyfiyyət təminatı sisteminin yaradılması və qiymətləndirilməsi

- Rektor, prorektor, dekan və elmi katibin hesabatlarının dinlənilməsi

- Yeni struktur bölmələrin yaradılması, ləğvi və yenidən təşkili

- Elmi adlara təqdimatlar və fəxri adlara vəsatətlər

- Təqaüdlərin və təhsil haqlarının müəyyənləşdirilməsi üzrə təkliflər

- Beynəlxalq əməkdaşlıqla bağlı məsələlərin təşkili

- Şura qərarlarının icrası və hesabatlılıq

5. İclasların təşkili və qərarların qəbul qaydası

5.1. Şura iclasları iki ayda bir dəfədən az olmayaraq keçirilir. Növbədənkənar iclas Şura sədrinin və ya üzvlərinin 2/3-nin təşəbbüsü ilə keçirilə bilər.

5.2. İclaslar 2/3 iştirakla səlahiyyətli sayılır. Qərarlar iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda sədrin səsi həlledici sayılır.

5.3. Səsvermələr açıq və ya gizli keçirilə bilər. Bitərəf qalmaq qadağandır.

5.4. İclaslar protokollaşdırılır və sənədlər elmi katib tərəfindən saxlanılır.

5.5. Şura qərarları rektor tərəfindən təsdiqləndikdən sonra qüvvəyə minir.

6. Qərarların hüquqi qüvvəsi və nəzarət

6.1. Şuranın qərarlarının icrası məcburidir və onların hüquqi qüvvəsi rektorun təsdiqindən sonra yaranır.

6.2. Qanunvericiliyə zidd və ya prosedur pozuntusu ilə qəbul edilən qərarlar ləğv edilə bilər.

6.3. Qərarlara qarşı inzibati və ya məhkəmə qaydasında şikayət verilə bilər.